# “Xaliq Faiqoğlu” MMC paytaxt sərnişindaşınmasında nümunəvi fəaliyyət göstərir

**“Sahibkarlar üçün Azərbaycanda analoqu olmayan şərait yaradılmışdır. Həm dövlət dəstəyi, maliyyə dəstəyi, texniki və intellektual dəstək göstərilir”**

**İlham ƏLİYEV**

## MODERN SİSTEM - KEYFİYYƏTLİ XİDMƏT





*Bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu sosial-iqtisadi siyasət nəticəsində ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoymuş, hər bir sahədə müsbət göstəricilərə nail olunmuşdur. Dövlət başçısı ölkəmizin davamlı inkişafında, ictimai-siyasi və makroiqtisadi sabitliyin təmin olunmasında, sosial məsələlərin həllində özəl biznes subyektlərinin roluna böyük önəm verir. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının əsas məqsədi də ölkə iqtisadiyyatındakı pozitiv meyilləri daha da sürətləndirmək və mövcud potensialı davamlı inkişaf naminə səfərbər etməkdir. Buna nail olunması üçün rəqabətqabiliyyətli, ixracyönümlü, çoxşaxəli, innovativ iqtisadiyyatın formalaşdırılması, sənayeləşmə siyasətinin sürətləndirilməsi, müəssisələrin texnoloji cəhətdən yeniləşdirilməsi və digər tədbirlər nəzərdə tutulur.*





İqtisadi inkişaf siyasətinin başlıca istiqamətlərindən biri özəl sektorun inkişafına hərtərəfli dövlət dəstəyinin olması, onun daha da genişlənməsi üçün əlverişli mühitin yaradılmasıdır. Bunun əyani sübutu olaraq Prezident İlham Əliyevin oktyabr ayının 19-da imzaladağı inqilabi fərman və Milli Məclisin sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasını nəzərdə tutan qanun layihəsini qəbul etməsi ölkə iqtisadiyyatının inkişafını sürətləndirmək, qlobal miqyasda daha böyük uğurlar əldə etmək üçün böyük və tarixi əhəmiyyət kəsb edən sənədlər oldu. Bu, bir daha göstərdi ki, Azərbaycan Prezidenti daim sahibkarların qayğısına qalır və onların fəaliyyətini stimullaşdırmaq üçün lazimi vacib qərarlar qəbul edir. Sahibkarlığın inkişafında yeni mərhələnin başlaması həm də dövlət büdcəsinin gəlirlərinin şaxələnməsinə səbəb olacaqdır. Ekspertlər hesab edir ki, 2016-cı ildə büdcəyə daxil olan hər 2 manatın təxminən 1 manatı məhz qeyri-neft sektorunun payına düşəcəkdir. Bu gəlirlərin təmin edilməsi isə bilavasitə sahibkarlığın, özəl biznes subyektlərinin daha da inkişaf etdirilməsi ilə bağlıdır.

Dövlətin daim diqqət göstərdiyi sahələrdən biri də nəqliyyat sektorudur. Belə ki, dövlət büdcəsinin gəlirlərində nəqliyyat sahəsindən gələn daxilolmaların xüsusi çəkisi vardır. Bu gün paytaxt Bakıda nəqliyyat sahəsinin təkmilləşdirilməsi, vətəndaşlara təhlükəsiz və rahat sərnişindaşıma xidmətinin göstərilməsi məqsədilə qəbul edilmiş dövlət proqramları əsasında böyük işlər görülür. Yol infrastruktrunun yenilənməsi, avropa istehsalı olan müasir avtonəqliyyat vasitələrinin Azərbaycana gətirilməsi, nəqliyyat sahəsində müasir elektron sistemlərin tətbiqi bu proqramların bir hissəsidir. Hökümət ən müasir texnologiyalar tətbiq etməklə Bakı şəhərində nəqliyyatın elektron idarəedilməsi, nəqliyyat sahəsində mövcud olan problemlərin minimallaşdırılması məqsədilə Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi (NİİM) yaradılmışdır. Şəhərdaxili sərnişin daşıma sahəsində işin optimallaşdırılması məqsədilə Nəqliyyat Əməliyyatlarının İntellektual İdarəetmə sistemlərinin tətbiq edilməsinə başlanmış, mövcud marşrut avtobusların hərəkət istiqamətləri həmin sistemə inteqrasiya edilməklə avtobusların hərəkətinin idarə edilməsi və nizamlanmasına nail olunmuşdur. Gün ərzində bir milyondan artıq vətəndaşın istifadə etdiyi nəqliyyat vasitələri müvafiq elektron və nəzarətedici cihazlarla təmin edilmiş, 600-dən artıq dayanacaqlarda elektron tablolar quraşdırılmışdır ki, bu monitorlar vasitəsilə sərnişinlərə marşrut avtobuslarının hərəkət qrafiki haqqında ətraflı məlumat verilir.

Ancaq hələ də bu istiqamətdə bəzi işlər tam həllini tapmamışdır. Bakı şəhərində sərnişindaşıma xidmətini həyata keçirən şirkətlər, sahibkarlar hesab edirlər ki, sərnişindaşımada mövcud problemlər avtomobillərin sayının çoxluğu və dayanacaqların sayının normadan az olmasıdır. Şəxsi minik avtomobillərinin və taksi fəaliyyəti ilə məşğul olan vasitələrin dayanacaqlarda yaratdığı sıxlıq marşrutların vaxtında və qrafik əsasında hərəkətinə mane olur və bu sərnişinlərin narazılığına səbəb olur.

Bu gün Bakı şəhərində fəaliyyət göstərən ikimindən artıq orta və iritutumlu avtonəqliyyat vasitələri ilə sakinlərə və şəhərin qonaqlarına sərnişindaşıma xidməti göstərilir. Bu şirkətlərdən biri də 2004-cü ildən fəaliyyət göstərən “Xaliq Faiqoğlu” MMC-dir. Şirkət bu gün Avropa istehsalı, müasir standartlara cavab verən, təhlükəsizlik kameraları və kondisioner sistemləri ilə tam təchiz olunmuş, Avro 5 standartlı “İsuzu Citibus” markalı avtobuslarla vətəndaşlara yüksək səviyyəli sərnişindaşıma xidməti göstərir. Uzun illərin təcrübəsi və məsuliyyətli fəaliyyət ilə “Xaliq Faiqoğlu” şirkəti bu gün nümunəvi sərnişindaşıma xidməti göstərir.

Şəhərdaxili sərnişindaşıma sahəsində həyata keçirilən islahatlar, mövcud problemlər və şirkətin fəaliyyəti ilə bağlı “Xaliq Faiqoğlu” MMC-nin rəhbəri Faiq Seyidova müraciət etdik.

F.Seyidov öncə qeyd etdi ki, oktyabr ayında Azərbaycan Prezidenti İlham Əliyev bir daha ölkə sahibkarlarının hamisi olduğunu göstərərək onların daha səmərəli, daha yaxşı fəaliyyət göstərmələri üçün tarixi fərman imzalayıb: “Bir sahibkar kimi mən də dövlət başçısına öz minnətdarlığımı bildirirəm və əminəm ki, ölkə rəhbərliyi tərəfindən qəbul edilmiş qərarlar, verilmiş sərəncamlar və həyata keçirilən islahatlar sahibkarlara süni maneələrin, əngəllərin aradan qaldırılmasına, sahibkarların maksimum dərəcədə sərbəst, rahat şəraitdə işləmələrinə, ölkə iqtisadiyyatına vəsait qoymalarına, yeni və daimi iş yerlərinin yaradılmasına və bununla da Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılmasına geniş imkanlar yaradacaqdır. Ona görə ölkəmizdə fəaliyyət göstərən sahibkarlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sahibkarlıq subyektlərində yoxlamaların dayandırılması, lisenziyaların sayının kəskin azaldılması və prosedurların sadələşdirilməsi barədə qərarlarını böyük razılıqla qarşılayıblar. Hesab edirəm ki, ölkə Prezidentinin sahibkarlara göstərdiyi dəstəkdən ruhlanan iş adamları ölkə iqtisadiyyatının inkişafı üçün bütün gücünü səfərbər etməlidirlər. Biz də paytaxtda sərnişindaşıma xidməti göstərən bir şirkət olaraq vəzifəmizi layiqincə yerinə yetirməyə çalışırıq”.

F.Seyidov deyir ki, rəhbəri olduğu şirkət uzun illərdir Bakı şəhərində 400-ə yaxın yeni, müasir avtobuslarla paytaxt sakinlərinə şəhərdaxili sərnişindaşıma xidməti göstərir. Şirkətin istismarında Koreya istehsalı olan “Daewo” və Türkiyə istehsalı olan “İsuzu Citibus” markalı avtonəqliyyat vasitələri və müasir standartlara cavab verən 2 ədəd avtobus parkı mövcuddur.

Şirkət 2013-2014-cü illər ərzində Bakı şəhərinə 300-dən artıq Türkiyə istehsalı olan “İsuzu Ecobus” markalı avtobuslar idxal etmiş və hal-hazırda həmin avtobuslar şəhər sakinlərinin istifadəsindədir. “Xaliq Faiqoğlu” MMC 2015-ci ildə “Anadolu Grup”a daxil olan İsuzu şirkəti ilə 200 ədəd “İsuzu Citibus” markalı avtobusların alınmasına dair yeni müqavilə imzalamışdır. Həmin müqavilə çərçivəsində ilk dəfə Bakıda keçirilən I Avropa Oyunları üçün 45 ədəd avtobus gətirilmiş və yaxın müddət ərzində digər avtobusların ölkəyə gətirilməsi nəzərdə tutulmuşdur: “Onu da qeyd edim ki, Azərbaycanda yüksək səviyyədə baş tutan bu mötəbər yarışlar başlamadan öncə 2 ay ərzində şirkət tərəfindən 200-ə yaxın nəqliyyat vasitəsi həyata keçiriləcək tədbirlər üçün ayrılmışdır. İstər hazırlıq dövründə, istərsə Oyunlar zamanı şirkət heç bir nöqsan olmadan tapşırılan işləri yüksək səviyyədə icra etmişdir. Ümumiyyətlə, müxtəlif səviyyəli dövlət tədbirlərində “Xaliq Faiqoğlu” şirkəti yaxından iştirak edərək, yüksək səviyyəli və qüsursuz xidmət göstərməkdədir”.

Şirkət sərnişindaşıma sahəsində beynəlxalq təcrübənin öyrənilərək, fəaliyyətimizdə tətbiqinə, beynəlxalq əməkdaşlığın qurulmasına böyük önəm verir. Şirkət uzun illərdir ki, İsuzu avtobuslarının istehsalı ilə məşğul olan Türkiyənin ən böyük holdinqlərindən biri olan “Anadolu Grup”la yaxından əməkdaşlıq edir. Bununla yanaşı İstanbul şəhəri nəqliyyat qurumu ilə əməkdaşlıq edən şirkət sərnişindaşıma sahəsində yeniliklərin öyrənilməsi, təcrübənin paylaşılması məqsədilə əməkdaşların qurumlara mütəmadi səfərlərini təşkil edir”.

F.Seyidovun sözlərinə görə, dövlətin, xüsusilə dövlət başçısının sahibkarlara olan dəstəyinə arxalanan “Xaliq Faiqoğlu” şirkəti bu illər ərzində dövət büdcəsindən maliyyə almadan, yəni öz vəsaiti və şirkətin sağlam fəaliyyətinə inanıb, etimad göstərən özəl banklardan cəlb edilmiş vəsaitlər hesabına daha da böyümüş, daim avtobus parkını yeniləmişdir. Bu gün şirkət Azərbaycan bank bazarında xüsusi çəkisi və yeri olan bir çox özəl banklarla sıx əməkdaşlıq edir. Eyni zamanda şirkət bu sahədə ən nümunəvi şirkətlərdən biridir. Belə ki, fəaliyyət sahəsi ilə əlaqədar dövlət büdcəsinə ödənilməsi nəzərdə tutulan ödənişlər şirkət tərəfindən vaxtı-vaxtında icra edilməkdədir.

Yüksək səviyyəli və təhlükəsiz xidmət, vətəndaşlara qayğı şirkətin əsas prinsipləridir. Təqdirəlayiq haldır ki, şirkətin fəaliyyəti dövründə insan tələfatı ilə nəticələnən heç bir qəza olmamış, sürücülərin nümunəvi davranışı, avtonəqliyyat vasitələrindən düzgün istifadə və təhlükəsizliyin təmin edilməsi ilə vətəndaşların rəğbətini qazanmış və müxtəlif dövlət qurumları tərəfindən qiymətləndirilmişdir. Bu şirkət rəhbərliyinin işinə qarşı olan yüksək dərəcədə məsuliyyətindən, sürücülərin seçimində və onların işinə nəzarətdə çox ciddi olmasından irəli gəlir. Şirkət tərəfindən azı 5 illik sürücülük təcrübəsi olan, vətəndaş qüsursuzluğu olan şəxslər sürücü qismində işə götürülür,onlarla əmək müqavilələri imzalanır, xüsusi geyimdə, üst-başlarının və üzlərinin təmiz olmasına nəzarət edilir. Hər səhər işə çıxmadan öncə tibbi müayinədən keçirilir, vətəndaşlara yüksək səviyyəli xidmət göstərilməsi üçün onlarla maarifləndirici işlər aparılır. Avtobuslar hər axşam avtobus parkında saxlanılır, səhər xəttə buraxılmadan öncə texniki və digər müayinələrdən keçirilir, avtobuslar xüsusi təmizləyici avadanlıqlar vasitəsilə təmizlənirlər. Ümumiyyətlə, texniki baxışdan keçməyən avtobus xəttə buraxılmır, təmir olunaraq istismara tam yararlı olduqdan sonra istifadəyə verilir. Avtobusların istismar müddəti 5 il nəzərdə tutulmuşdur. İstismar müddəti bitmiş avtobuslar yeniləri ilə əvəz olunur.

Mövcud problemlərə də toxunan F.Seyidovun fikrincə, bu gün Bakı şəhərində sərnişindaşımada olan nöqsanlardan biri avtobus dayanacaqlarının normadan az olmasıdır ki, bu isə öz növbəsində mütəmadi olaraq dayanacaqdan kənarda saxlamaq istəməyən sürücü ilə sərnişinlər arasında müəyyən narazılıqlara səbəb olur. Beynəlxalq normalara görə hər 500-700 metrdən bir dayanacağın olmasını nəzər alsaq paytaxtda 700-ə yaxın dayanacaq çatışmır. Bundan başqa məlum olduğu kimi yerli və xarici banklardan böyük vəsaitlər cəlb edərək yeni,müasir avtobuslar sərnişinlərin xidmətinə verilir. Lakin bəzi sərnişinlər avtobusların salonunu natəmiz hala gətirirlər.

Şirkət rəhbəri deyir ki, bununla yanaşı şəxsi minik avtomobilindən taksi kimi istifadə edən bəzi sürücülərin avtobus dayanacaqlarında dayanması sərnişindaşımaya ciddi əngəllər yaradır. Belə ki, dayanacağa daxil ola bilməyən avtobus yolun ikinci xəttində dayanmaq məcburiyyətində qalır ki, bu da tıxacların yaranmasına səbəb olur.

“Lakin mövcud problemlərin həllinə çalışan və bu məqsədlə bütün gücünü səfərbər edən müvafiq qurumların müsbət fəaliyyətini qeyd etmək istərdim. Xüsusilə son zamanlar şəhərdaxili sərnişindaşıma sahəsində uğurla həyata keçirilən islahatlarda Dövlət Avtomobil Nəqliyyatı xidmətinin rolunu qeyd etmək lazımdır. Belə ki, sərnişin daşıma sahəsində nümunəvi fəaliyyətin təmin edilməsi, vətəndaşlara təhlükəsiz və yüksək səviyyəli xidmətin göstərilməsi məqsədilə qurum tərəfindən biz sahibkarlarla mütəmadi maarifləndirici görüşlər keçirilir və qarşıya çıxan problemlərin həllində qurum yaxından iştirak edir. O cümlədən quruma daxil olan “Bakı sərnişin və yükdaşımalarının təşkili” MMC vətəndaşların mənzilbaşına rahat və təhlükəsiz çatmaları üçün marşrut xətlərində qısa müddət ərzində apardığı islahatlar, mövcud xətlərin optimallaşdırılması və ya yeniləri ilə əvəz edilməsi xüsusilə, ikinövbəli iş rejiminin tətbiqinə nail olmaqla şəhərdaxili sərnişindaşıma sahəsində böyük nailiyyətlər əldə etmişdir”.

Artıq 11 ildir bu sahədə fəaliyyət göstərən “Xaliq Faiqoğlu” MMC sərnişindaşıma sahəsində öncül addımlar atan, xidmətin keyfiyyəti ilə seçilən öncül bir şirkətə çevrilib. F.Seyidov deyir ki, şirkətin bu səviyyəyə çatması gecə və gündüz gərgin əməyin nəticəsində baş tutmuşdur: “Əgər sərnişindaşıma xidməti ilə məşğul olan bir şirkət gecə işləməsə gündüz vətəndaşlara istənilən keyfiyyətdə xidmət göstərə bilməz. Biz də bu 11 il ərzində gecələr avtomobil parkında işləyib,gündüzlər xidmət etmişik ki, hər keçən gün daha yaxşı, daha keyfiyyətli xidmət göstərək. Bu gün biz öz işimizi planlı şəkildə həyata keçirir və sərnişinlərə yüksək səviyyədə xidmət göstəririk”.

“Xaliq Faiqoğlu” MMC-nin qarşıdakı hədəflərinə gəlincə, F.Seyidov bildirdi ki, avtobus parkının mütəmadi yenilənməsi ilə yanaşı yaxın vaxtlarda elektron sistemə keçid nəzərdə tutulmuşdur. Son illər ərzində sifariş olunan avtobuslarda bu məqsədlə istehsalçı şirkət tərəfindən xüsusi avadanlıqların quraşdırılması təmin edilmişdir. Ancaq elektron sistemə keçid müəyyən zaman tələb etdiyi üçün proses tədricən həyata keçiriləcəkdir. Bu istiqamətdə əsas gözlənti ödəniş terminallarının, və kart satış mərkəzlərinin Bakı şəhəri üzrə sayının artırılmasıdır. F.Seyidov deyir ki, avtobusların birdən-birə kart sisteminə keçidi istər sərnişinlər, istərsə sahibkarlar üçün müəyyən problemlər yarada bilər. Ona görə də məqsəd həm kart sistemi, həm də nağd ödənişlərlə fəaliyyət göstərməkdir: “Doğrudur, kart sisteminə keçid şirkət üçün çox əlverişlidir. Ancaq biz istəyərik ki, bu sistemə tədricən,mərhələli şəkildə keçək ki, sərnişimlərimiz üçün daha rahat olsun. Ümumiyyətlə, şirkət hər zaman yeniliklərə açıqdır və beynəlxalq təcrübənin öz fəaliyyətimizdə tətbiqinə hər zaman böyük önəm verir”.

Bəli, görülən bu işlər onu deməyə əsas verir ki, sahibkarlar Prezident İlham Əliyevin onlara göstərdiyi diqqət və qayğı sayəsində daha məsuliyyətli işləməyə və vətəndaşlara yüksək səviyyəli, qüsursuz xidmət göstərməyə borcludurlar. Nəqliyyat sektorunda nümunəvi sərnişindaşıma xidməti ilə seçilən “Xaliq Faiqoğlu” MMC də öz fəaliyyətini ən yüksək səviyyədə təşkil etməklə paytaxt sakinlərinin xidmətindədir.





***Bəhman MİRZƏYEV,***

***Ağaəli MƏMMƏDOV (foto),***

***“Azərbaycan”***